# Azərbaycana səyahət edən əcnəbi vətəndaşların sayı 2,5 milyona çatır; Noyabrda İrandan səfər edənlərin sayında 40% azalma müşahidə olunur

2018-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycana səfər etmiş əcnəbilərin sayı 2017-ci ilin analoji dövrü ilə müqayisədə 6% və ya 151 min nəfər artıb. Bununla da sərhədlərimizi keçən səyahətçilərin sayı təxminən 2,5 milyona çatıb. Səyahət edənlərin 50%-dən çoxu Rusiya və Gürcüstandan gəlib. Belə ki, bu ölkələrdən gələnlərin sayı 4% və 13% artaraq, 817 və 550 min nəfər olub. Ən diqqətəlayiq artım isə Orta Şərq və Asiya regionlarına aiddir. Sözügedən regionlardan gələnlərin sayı, müvafiq olaraq 39% və 56% artaraq 346 və 297 min nəfər təşkil edib. Ənənəvi olaraq, Pakistan (37 min), Qazaxıstan (35 min), Hindistan (35 min) və Türkmənistan (25 min) Asiya, BƏƏ (81 min), Səudiyyə Ərəbistanı (70 min) və İraq (64 min) isə Yaxın Şərq bölgəsinin əsas bazarlarıdır.

Müsbət artım tendensiyasına malik ölkələrlə yanaşı azalma da müşahidə olunan bölgələr mövcuddur. Belə ki, yanvar-noyabr ayları ərzində İrandan gələn səyahətçilərin sayı 114 min nəfər azalaraq 227 min nəfər təşkil edib ki, bu rəqəm ötən ilin analoji dövrü ilə müqayisədə 33% azalma deməkdir. Məlumat üçün bildirək ki, 2017-ci ildə İran İslam Respublikası Rusiya və Gürcüstandan sonra Azərbaycan turizminin üçüncü ən böyük bazarı idi. Görünür, İran 2018-ci ildə Azərbaycan turizmində bu əlverişli mövqeyini itirəcəkdir.

Türkiyədən gələnlərin sayında da azalma müşahidə olunub - keçən ilin eyni dövrü ilə müqayisədə türkiyəli səyahətçilərin sayı 3% azalaraq 267 minə nəfərə enib.

**Qrafik 1: 2017 və 2018-ci ilin yanvar-noyabr ayları ərzində 6 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**




Noyabr ayında ölkəmizə səfər edənlərin sayı 2017-ci illə müqayisədə 6% artaraq 213 min nəfərə çatıb. Əhəmiyyətli artım Gürcüstandan (25%) və cəmi 18 min nəfər təşkil etməsinə baxmayaraq, Asiya ölkələrindən (53%) gələnlərin sayında müşahidə olunub (bax **Qrafik 2**). İl boyu olduğu kimi noyabr ayında da İrandan gələnlərin sayında kəskin azalma (40%) baş verib.

**Qrafik 2: 2017 və 2018-ci ilin noyabr ayında 6 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




**Qrafik 4**-də 2018-ci ilin yanvar-noyabr aylarında 6 ölkə və regionun bazar payı təsvir edilib. Qrafikdən göründüyü kimi, Rusiya, Gürcüstan və Yaxın Şərqdən gələn səyahətçilərin sayı 2018-ci ilin müvafiq müddətində Azərbaycana gəlmiş səyahətçilərin ümumi sayının 65%-ni təşkil edir. Bununla belə, qeyd edilmiş 6 ölkə və regionun bazar payında bəzi dəyişikliklər baş verib. Belə ki, İran 2017-ci ilin eyni dövrü ilə müqayisədə bazar payının təqribən 5%-ni, Rusiya və Türkiyə isə sadəcə 1%-ni itirib. Yaxın Şərq, Asiya və Gürcüstanın bazar payı isə əksinə müvafiq olaraq 3%, 2% və 1% artıb.

**Qrafik 3: 2017-ci ilin yanvar-noyabr aylarında 6 ölkə və regionun bazar payı**
**Cəmi: 2.47 mln.**




**Qrafik 4: 2017-ci ilin yanvar-noyabr aylarında 6 ölkə və regionun bazar payı**
**Cəmi: 2.62 mln.**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Miqrasiya Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır

Cədvəl 1: 2018-ci ilin noyabr ayında və 2018-ci ilin yanvar-noyabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2017-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2018 | | 2017 | |
|---|---|---|---|---|
| | Noy | Yanvar-Noyabr | Noy | Yanvar-Noyabr |
| Rusiya | 65 781 | 817 689 | 62 681 | 790 258 |
| Gürcüstan | 61 014 | 550 422 | 48 964 | 488 269 |
| Türkiyə | 23 881 | 266 978 | 25 937 | 275 147 |
| Asiya | 18 359 | 196 701 | 12 002 | 125 821 |
| Yaxın Şərq | 15 674 | 345 534 | 16 036 | 249 202 |
| İran | 11 907 | 226 897 | 19 798 | 340 702 |
| Şərqi Avropa | 7 212 | 92 961 | 6 859 | 90 488 |
| Qərbi Avropa | 6 280 | 91 038 | 6 663 | 84 924 |
| Amerika | 1 641 | 24 985 | 1 506 | 20 763 |
| Afrika | 668 | 7 660 | 333 | 4 321 |
| Digər | 565 | 8 052 | 525 | 8 013 |
| **CƏMİ** | **212 982** | **2 628 917** | **201 304** | **2 477 908** |